**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN FORTEPİANO İFAÇILIĞINDA ELMİ AXTARIŞLARIN TƏTBİQİ PROBLEMLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Nuranə Şıxəli qızı Zeynalova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | fəlsəfə elmləri doktoru, professor<br>**Gülnaz Abutalıb qızı Abdullazadə** |
| Rəsmi opponentlər: | sənətşünaslıq doktoru, professor<br>**Sevda Firuddin qızı Qurbanəliyeva** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Elmira Pənah qızı Pənahova** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Cəmalə Tərlan qızı Nəsirova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor<br>_____________ **Ülviyyə İsmayıl qızı İmanova** |
| Dissertasiya şurasının elmi katibi: | sənətşünaslıq doktoru, dosent<br>_____________ **Leyla Ramiz qızı Zöhrabova** |
| Elmi seminarın sədri: | sənətşünaslıq doktoru, dosent<br>_____________ **Aytac Elxan qızı Rəhimova** |

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan musiqi mədəniyyətində fortepiano ifaçılığı sənəti xüsusi əhəmiyyətə və mövqeyə malikdir. Ölkəmizdə fortepiano incəsənəti qısa zaman kəsiyində inkişaf etdirilmiş və yüksək səviyyəyə çatdırılmışdır. XX əsrin əvvəllərindən başlayan bu yolda Azərbaycan musiqi mədəniyyəti Şərq və Qərb musiqisi ənənələrinin üzviləşdirilməsi, bir sistem halında ümumiləşdirilərək təməli qoyulmuş və formalaşdırılmışdır. Milli fortepiano mədəniyyətimizin yaranmasında və təşəkkül tapmasında həm bəstəkar, həm ictimai-siyasi xadim kimi, dahi şəxsiyyət Üzeyir Hacıbəylinin rolu əvəzsizdir. Milli zəminə əsaslanan və dünya musiqisinə inteqrasiyası potensialına sahib nümunələrin yazılması, ifaçılıqda xarici müəllimlərin bilik təcrübəsinə və metodologiyasına əsaslanma isə parlaq ənənələrin təkamülünə, bəstəkarlığın yeni üslub və təmayüllərlə zənginləşməsinə rəvac vermiş, fortepiano ifaçılığının da yüksək mədəni pillələrdə qərarlaşmasına yol açmışdır.

Azərbaycanda mürəkkəb tarixi proseslərin təsiri altında formalaşaraq, müstəqillik əldə etdikdən sonra da uğurla davam etdirilən fortepiano ifaçılığı sənəti zəngin ənənələrə sahib bir məktəb kimi öz təsdiqini tapa bildiyini göstərmişdir. Bu tarixi mərhələdə Azərbaycan fortepiano ifaçılığında yeni ənənələr və təmayüllər meydana gəlmiş və onların müstəqil inkişafı üçün də zəmin yaranmışdır. Bu inkişaf mərhələsində fortepiano ifaçılığında janr, üslub, obraz-məzmun yenilənməsi, milli təfəkkürə qayıdış, bədii səviyyənin yüksəlişi şəraitin, konkret düşüncənin məhsulu kimi ön plana çıxmışdır.

Yeni zaman dilimində Azərbaycan fortepiano ifaçılığının formalaşmasında bəstəkar yaradıcılığının əhəmiyyəti və yeri, pedaqoji problemlər, tədris məsələləri, metodlar yenidən nəzərdən keçirilir və müxtəlif aspektlərdən işıqlandırılır. Bu istiqamətdə aparılan tədqiqatların tətbiqi problemlərinin öyrənilməsi, yeni tədqiqat işlərinin yazılması da bu baxımdan aktuallıq təşkil etməkdədir.

F.Xəlilovanın[1], L.Rzayevanın[2], L.Abasquliyevanın[3], H.Məhərrəmovanın[4], T.Seyidovun[5] və digərlərinin elmi tədqiqatlarında Azərbaycan fortepiano mədəniyyətinin bir çox aspektlərdən araşdırılması, o cümlədən pianoçularımızın, pedaqoqlarımızın fəaliyyəti və yaradıcılıqlarına həsr olunmuş bir sıra elmi işlərin təqdim edilməsi əhəmiyyətlidir. Bu müəlliflər sırasında T.Seyidov[6], A.Mailova[7], G.Səfərova[8], E.Kəbirlinskaya[9], K.Hüseynova[10] və digərlərinin adlarını çəkmək olar. Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunmuş monoqrafiyalarda da onların fortepiano əsərləri təhlil olunmuş, bir çoxlarında ifaçılıq məsələləri də araşdırılmış, xüsusi ifaçılıq sahəsi olan konsertmeyster və ansambl ifaçılığı barədə də elmi işlər yazılmışdır.

Aktiv proses özünü fortepiano ifaçılığını əhatə edən yüzlərlə metodik tövsiyə və vəsaitlərdə göstərir. Xüsusilə, son illər ifaçılıq problemlərinə həsr olunan elmi işlərin kəmiyyəti artmaqdadır.

---

[1] Халилова, Ф.З. Очерки истории азербайджанской фортепианной культуры:/ Автореф. Дисс…канд. искусствовед. / – Баку, 1969. – 21 с.

[2] Рзаева, Л.С. Современная фортепианная музыка Азербайджана (проблемы творчества и исполнительства): / Автореф. дисс…канд. искусствовед. / – Ленинград, 1990. – 17 с.

[3] Абаскулиева, Л.Г. Основные тенденции формирования и развития азербайджанской профессиональной фортепианной культуры: /. Автореф. + дисс…канд. искусствовед. / – Баку, 2005. – 28 с.

[4] Магерремова, А.А. Становление и развитие фортепианно-исполнительской культуры Азербайджана. Учебное пособие / А.А.Магеррамова. – Баку: – Мутарджим, – 2012. – 180 с.

[5] Seyidov, T.M. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkar yaradıcılığı / T.M.Seyidov. – Bakı: Təhsil, – 2016. – 336 s.

[6] Сеидов, Т.М. Видные деятели фортепианной культуры Азербайджана / Т.М.Сеидов. Баку: Ишыг, – 1988. – 172 с.

[7] Маилова, А.Г. Становление и развитие музыкально-исполнительского творчества К.К.Сафар-Алиевой / А.Г.Маилова. – Баку: Адильоглы, – 2003. – 466 с.

[8] Сафарова, Г. Абаскулиев Октай. Творческий портрет педагога / Г.Сафарова. – Баку: Ульдуз, – 2005. – 128 с.

[9] Кеберлинская, Э.Р. Педагогические аспекты изучения сочинений Ф.Шопена / Э.Р.Кеберлинская. – Баку: РСХМ, – 2010. – 75 с.

[10] Hüseynova, K.Q. Musiqimizin Fərhadı / K.Q.Hüseynova. – Bakı: Adiloglu, – 2007. – 352 s.

Müasir dövrümüzdə milli fortepiano ifaçılığı məktəbində yeni meyarlar meydana gəlmiş, müxtəlif axtarışlar öz təcəssümü tapmışdır. Fəal bir prosesin parçası olan tədqiqatlar, islahatlar və eləcə də son illər Azərbaycan fortepiano ifaçılığında baş verən elmi axtarışlar və onların meydana gətirdiyi yeniliklərin sərhədlərimizdən kənarda müsbət qarşılanaraq tətbiq edilməsi də arzuolunan nəticədir.

Azərbaycan fortepiano ifaçılığına dair tədqiqatlar, bu elmi işlərdə irəli sürülmüş yeni metodların tətbiqinin araşdırılması müasir dövrün tələb olunan məsələlərindən birini təşkil edir. Bu baxımdan, elmi-nəzəri istiqamətin milli ifaçılıq sənətinin inkişafında rolu, müasir dövr tendensiyalarına uyğun gələn meyarların tətbiqi, fortepiano ifaçılığının təkmilləşdirilməsində effektiv metodlar, milli məqam xüsusiyyətlərinin tətbiqinin Azərbaycan fortepiano ifaçılığında meydana gətirdiyi yeniliklər öz əksini təqdim edilmiş doktorluq dissertasiyasında tapmışdır. Yeni elmi axtarışların nəticələri və tətbiq olunan metodik yanaşmaların qavranılması probleminə həsr olunan tədqiqat işində aktuallığını qoruyan bu istiqamətlərə xüsusilə nəzər salınmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Təqdim olunan tədqiqat işinin obyektini Azərbaycan fortepiano ifaçılığı üzrə aparılan elmi axtarışlar təşkil edir. İşdə həmin axtarışların tətbiqi yolları, bunun nəticəsində meydana çıxmış yeni yanaşma və metodların araşdırılması və üzə çıxarılması məsələləri təşkil edir. Bu mövzuda xalq musiqisi nümunələrinin işləmələrinin və onların tədrisdəki rolu, ansambl ifasının şagirdlərin inkişafındakı əhəmiyyəti, düzgün metodlara əsaslandırılmış təlim-tədris prosesinin peşəkar musiqiçilərin formalaşmasında, onların bədii-estetik zövqünün bütünlük təşkil etməsində rolu və digər məsələlər araşdırılmışdır. Metodiki vəsaitlərin nəzərdən keçirilməsi və onların tətbiqi mövzusu da işin əsas istiqamət xətlərindən biri olmuşdur.

Tədqiqatın predmeti innovasiyaların Azərbaycan fortepiano ifaçılığında meydana gətirdiyi yeni metodların, meyarların, metodiki prinsiplərin müasir dövr milli pianoçuluq sənətinin inkişaf prosesinə təsiri məsələlərinin öyrənilməsidir. Bu istiqamətdə tədqiqatda LOLA sisteminə nəzər salınmış, ifaçılıq sahəsində yeni tətbiq edilən audio-vizual yayımın əhəmiyyəti aydınlaşdırılmışdır. Eləcə də “elmi-

ifaçılıq" anlayışının konsert və festivallarda əsaslı yer tutması məsələləri araşdırılmış, müsbət təsirləri müəyyən edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi Azərbaycan fortepiano ifaçılığında tətbiq olunan və milli fortepiano ifaçılığının inkişafını şərtləndirən elmi axtarışların tam şəkildə tədqiqata cəlb olunması və tətbiqi nəticəsində fortepiano ifaçılığında baş verən yeniliklərin, metodların effektivliyini və inkişafetdirici xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir. Başlıca məqsəd ifaçılığa dair bütün elmi işlərin araşdırılmasından ibarət olmamış, fortepiano ifaçılığı sahəsində onun inkişafını şərtləndirən, müsbət təsir göstərən və dünya fortepiano musiqi mədəniyyəti səviyyəsinə qədər yüksəlməsini təmin edən işlərin, metodların və layihələrin tədqiqi əsas götürülmüşdür. Bu məqsədlərdən irəli gələrək, dissertasiya işində aşağıdakı vəzifələr irəli sürülür və onların həlli qarşıya qoyulur:

1. Azərbaycan fortepiano ifaçılığı və bu sahədəki bir sıra müraciət edilən araşdırmaları təhlil etmək;
2. Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinin elmi-metodiki əsasını və ifaçılıq təfsirlərini araşdırmaq;
3. Fortepiano ansamblı ifaçılığının təşəkkülü və inkişafında yeni metodik yanaşmaları müəyyənləşdirmək;
4. T.Seyidovun elmi-pedaqoji baxışları və tətbiq etdiyi yeni və fərqli metodlu pedaqoji prinsiplərini tədqiq etmək;
5. Fortepiano ifaçılığı üzrə Azərbaycanda keçirilən müsabiqə və festivallarda tətbiq olunan yeni meyarları üzə çıxarmaq;
6. Elmi-axtarışların tətbiqi nəticəsində meydana gələn yeni tendensiya və istiqamətləri araşdırmaq və elmi-nəzəri səviyyədə ümumiləşdirərək öyrənmək.

**Tədqiqat metodları.** Tədqiqatın əsas məqsədi Azərbaycan fortepiano ifaçılığında elmi axtarışların tətbiqi problemlərinin araşdırılması olduğu üçün istinad etdiyimiz metodologiya xronoloji ardıcıllığı ehtiva edən, tarixi, müqayisəli, nəzəri metodlara əsaslanmışdır. Mövzunun işlənməsində Üzeyir Hacıbəylinin, Həqiqət Məhərrəmovanın, Maya Sadıqzadənin, Adilə Mailovanın, Şəhla Həsənovanın, Oqtay Abasquliyevin, Tərlan Seyidovun, Tamilla Kəngərlinskayanın, Fərəh Əliyevanın, Aytən İbrahimovanın, Könül

Hüseynovanın və digər alim və musiqişunasların elmi işlərinə istinad olunmuşdur.

Təqdim olunan dissertasiyanın metodoloji bazasına çevrilmiş bu elmi işlərin nəticələri mənbə kimi istifadə olunmuşdur. Tədqiqat işinin metodoloji əsasını Azərbaycan, rus və türk musiqişünaslarının elmi ədəbiyyatı təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Aşağıda qeyd edilən müddəalar müdafiəyə çıxarılır:

1. Avropa və rus ifaçılıq ənənələrinin Azərbaycan fortepiano məktəbinin formalaşmasındakı rolunun araşdırılması və rus pianoçu pedaqoqlarının tətbiq etdiyi metodların üstünlük təşkil etdiyinin aşkarlanması;
2. Azərbaycan fortepiano ifaçılığı sahəsində metodiki fikrin formalaşmasının nəzərdən keçirilməsi və klassik avropa pianoçuluq ənənələrinin davamı kimi rus pianoçuluq metodikasının tətbiq olunduğu və milli bəstəkarlarımızın əsərlərinin repertuara daxil olunması ilə milli pianoçuluq məktəbinin yaradılması üçün zəminin hazırlanmasının üzə çıxarılması;
3. Fortepiano ifaçılığında tətbiq olunan ənənəvi və yeni metodlu bir sıra dərs vəsaitlərinin araşdırılması;
4. Azərbaycan bəstəkarlarının fortepiano əsərləri üzrə aparılan araşdırmaların elmi-metodiki əsaslarının aşkar edilməsi və əsərlərin təhlilində milli məqamlarla və daha çox ifaçılıqla bağlı yeni metodların üzə çıxarılması müddəalarının irəli sürülməsi;
5. Azərbaycan milli məqamları və xalq musiqisinin fortepiano işləmələrinin ifaçılıq problemləri nəzərdən keçirilərək klassik avropa və rus ifaçılıq qaydalarından fərqli ifaçılıq tərzini özündə əks etdirən müddəalar təklif edilməsi;
6. Fortepiano ansamblı ifaçılığında birgə ifanın texniki vərdişlərinin inkişafı və əsərlərin ifaçılıq baxımından araşdırılması ilə bağlı yeni metodik yanaşmaların üzə çıxarılması;
7. T.Seyidovun elmi-pedaqoji baxışları və tətbiq etdiyi pedaqoji prinsiplərin mahiyyətinin açıqlanması;
8. Fortepiano ifaçılığı üzrə Azərbaycanda keçirilən müsabiqə və festivallarda tətbiq olunan milli məqamlar və musiqi əsərlərinin

nəzəri və ifaçılıq baxımından araşdırılması ilə bağlı yeni meyarların təhlil olunması;

9. Azərbaycan fortepiano ifaçılığında elmi axtarışların meydana gətirdiyi yeni tendensiyaların fortepiano ifaçılığına təsirinin təhlil edilməsi.

Bu araşdırmalarda təqdim olunan əsərlərin nəzəri və ifaçılıq baxımından araşdırılması, milli məqamların və xalq musiqisinin ifaçılığı ilə bağlı müddəalar yeni metodlu dərs vəsaitlərinin yaranması, gələcəkdə milli fortepiano ifaçılıq sənətinin inkişafını səciyyələndirən yeni tədqiqatların üzə çıxarılması üçün yol açır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi Azərbaycan musiqişünaslığında fortepiano ifaçılığı sahəsi üzrə aparılan elmi axtarışların dissertasiya səviyyəsində tədqiq olunması və bu elmi axtarışların tətbiqinin nəticələrinin araşdırılmasıdır. Elmi axtarışlar nəticəsində meydana gələn yeni metod və layihələr, müasir dövrün tələbinə uyğun dərs vəsaitləri təhlil edilmiş və müasir dövr Azərbaycan fortepiano ifaçılığının təkamülündə bu innovasiyaların tətbiqinin yeri və rolu müəyyən edilmişdir. Aparılan tədqiqat nəticəsində aşağıdakı elmi yenilikləri qeyd etmək olar:

a) Azərbaycan fortepiano ifaçılığının təkamül mərhələlərində elmi fikrin nəzərdən keçirilməsi;

b) Bu sahədə innovativ metodların təcrübədən keçirilərək nəticələr əldə olunması;

c) Fortepiano ifaçılığında tətbiq olunan milli məqamlarla bağlı yeniliklərin və "elmi-ifaçılıq" terminin mahiyyətinin açıqlanması;

d) Bəstəkar əsərlərinin təhlili nümunələrində yeni metodların təcrübi tətbiq edilməsi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın materiallarından əldə edilmiş elmi müddəalardan gələcək elmi-tədqiqat işlərində, mühazirələrdə, seminarlarda istifadə edilə bilər. Bu nəticələrin, xüsusilə ali və orta ixtisas musiqi məktəblərinin nəzəri və praktiki kurslarında, "Azərbaycan musiqi tarixi", "Azərbaycan musiqi ədəbiyyatı", "Azərbaycan fortepiano musiqi incəsənəti tarixi", "Xüsusi pedaqoji hazırlıq", "Fortepiano ansamblı ifaçılığı", "İxtisas fortepiano" "Ümumi fortepiano" və incəsənət sahəsini əhatə edən digər fənnlərin tədrisində tətbiqi mümkündür.

Təqdim edilən nəzəri müddəalar gələcəkdə Azərbaycan fortepiano ifaçılığını araşdırlan tədqiqatçılar üçün təkan rolunu oynaya, bu sahədə yeni yanaşmalar və metodların üzə çıxarılması üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslardakı çıxışlarında, yerli və xarici elmi məcmuələrdə çap olunmuş bir sıra məqalələrdə, tərtib etdiyi dərs vəsaiti və metodik işlərində öz əksini tapmışdır. Tədqiqatın nəticəsi kimi müəllifin "Dostum Fortepiano", "Poeziyada ilin fəsilləri", adlı metodik vəsaitləri, "Musiqidə ilin fəsilləri" elektron vəsaiti, və ansambl üzrə "Birgə çalaq" adlı dərs vəsaiti hazırlanmış və çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsildən təşkil olunaraq birinci fəsil iki, ikinci fəsil iki, üçüncü fəsil dörd bölmədən, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, giriş 8 səhifə (12 109 işarə), I fəsil 31 səhifə (55 112 işarə), II fəsil 29 səhifə (35 208 işarə), III fəsil 48 səhifə (91 210 işarə), nəticə isə 8 səhifədən (12 255 işarə) ibarətdir. Tədqiqat işinin ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı, notoqrafiya və saytoqrafiya istisna olunmaqla 123 səhifə və 208 285 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli **"Azərbaycan fortepiano ifaçılıq metodikasının erkən formalaşması dövrünün bəzi xüsusiyyətləri"** adlanır. Bu fəsil özündə iki paraqrafı birləşdirir. Birinci fəslin ilk paraqrafı **"Azərbaycan fortepiano ifaçılıq məktəbinin formalaşmasının erkən dövrü və onu meydana gətirən ilk metodiki yanaşmalar"** adlanır.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Tərlan Seyidov bu mərhələdə Azərbaycanda geniş müzakirələr keçirildiyini yazır. Musiqi mədəniyyətinin inkişafı məsələsində, "təşkilatçılıq" illərində əsas iki istiqamət özünü qabarıq göstərirdi. Mühafizəkar mövqe nümayiş etdirənlər milli musiqinin toxunulmazlığını tələb edir, Qərb təsiri ilə formalaşdırılan Şərq təhsili formasını qəbul etmirdilər. Dahi bəstəkar, musiqişünas alim Üzeyir Hacıbəyli və onunla eyni fikri bölüşənlər isə Şərq musiqisinin təhsil sistemində avropa ənənələri ilə üzviləşdirilmiş, öz kökləri üzərində inşa edilməsi tərəfdarı kimi dünya musiqi mədəniyyətinə inteqrasiyası üçün çalışırdı.

Bu cəhdlər isə sovet hakimiyyətinin qurulmasından daha əvvələ gedib çıxırdı. ADR illərində Üzeyir Hacıbəyli həm bəstəkar, həm də görkəmli ictimai-siyasi bir sima kimi mədəni proseslərdə fəal iştirak edir və onun formalaşdırılması üçün həmfikirləri ilə birgə çalışırdı.

Hələ 1919-cu ildə təqdim olunmuş layihədə, Rus Musiqi Cəmiyyətininin 1916-ci ildə Bakı Musiqi Texnikumuna çevrilmiş mərkəzində konservatoriya yaradılması üçün müraciət edilmişdi. Beləliklə, Peterburq konservatoriyasının modeli əsasında düşünülmüş və milli zəmin üzərində qurulması planlaşdırılan konservatoriya ideyasının Cümhuriyyət dövründə həyata keçirilməsinə maneələr yaranır. Bu fikirlər SSRİ qurulduqdan qısa müddət sonra, 1921-ci ildə Dövlət konservatoriyasının əsasının qoyulması ilə rəsmiləşir. Məhz bununla da, iki onilliyi əhatə edəcək sınaq, axtarış və islahatlar mərhələsinə addım atılır. Beləliklə də, konservatoriyaya Rusiyadan müəllimlər, eləcə də Rus Musiqi Cəmiyyətinin Bakı şöbəsində çalışan pedaqoqlar dəvət edilir. 1922-23-cü tədris illərində Azərbaycan Dövlət Konservatoriyasında Maarif komissarlığı tərəfindən təsdiqlənmiş və tamamlanmış professor-müəllim heyəti fəaliyyət göstərirdi.

Başlanğıc mərhələdə rus və Avropa ənənələrinin təsiri və milli mədəniyyətlə qarşılıqlı əlaqəsi və tətbiqi nəticəsində Azərbaycan fortepiano ifaçılığı əsas aşağıdakı istiqamətlərlə inkişaf edirdi:

1. Klassik avropa pianoçuluq ənənələrinin davam etdirilməsi.
2. Rus pianoçu-pedaqoqlarının tətbiq etdiyi metodlar.
3. Azərbaycan bəstəkarlarının əsərlərinin repertuara daxil olması.

30-cu illər sovet tədrisində dəyişikliklər baş verir, təhsil şəbəkəsi genişlənir, quruluş fərqlilikləri, kafedraların ayrılması, təcrübə və metodika kurslarının açılması, yeni müəllimlərin dəvət edilməsi və s. həyata keçirilir. Bəstəkarlıq nümunələrinin də sayı artır. Bu illərdə bir sıra müsabiqələr keçirilir, Azərbaycan dilinə dərsliklər tərcümə olunurdu. Konservatoriyadakı müəllimlərin böyük qismi sonralar, əsasən II dünya müharibəsinin bitməsi və Üzeyir bəyin ölümündən sonra təhsil ocağından ayrılırlar. Bu illərdə isə artıq azərbaycanlı yetişdirmələrin yolu müəyyənləşmiş, parlaq bəstəkar simalar, zəngin bəstəkarlıq nümunələri yaradılmış, çoxsaylı ifaçılar yetişdirilmişdi. Fortepiano sinfində əvvəllər ayrı-ayrı müəllimlərin prinsipləri artıq müəyyən bir istiqamət şəklində formalaşır. Bu illərdə paralel olaraq yazılan əsərlər də öz növbəsində milli xüsusiyyətlərin özünməxsus və yalnız azərbaycanlıların tədris edə biləcəyi metodların formalaşmasına şərait yaradır.

Azərbaycanda milli fortepiano məktəbinin yaranması məhz bu mərhələdən başlayaraq inkişaf etmiş, milli fortepiano məktəbi professional səviyyəyə çataraq milli ənənələrlə klassik ənənələrin qovuşması nəticəsində müasir dövrümüzdə özünün yüksək səviyyəsinə çatmışdır.

Bu fəslin ikinci paraqrafı **“Fortepiano ifaçılığında tətbiq olunan dərs vəsaitlərinin müqayisəli təhlili və aparılan araşdırmalarda fərqli yanaşmalar”** adlanır.

Fortepiano ifaçılığını əhatə edən, onun müxtəlif aspektləri ilə bağlı olan tədqiqatların, dərsliklər, metodik, elmi-metodiki işlərin musiqi tədrisi təcrübəsində xüsusi əhəmiyyətə malik olmaqla yanaşı, həm də düzgün tətbiq olunduğu təqdirdə dolğun, zəngin nəticələr əldə edilməsi üçün əsaslı rol oynayır. Bu, pianoçunun yetişdirilməsində, istərsə də müstəqil fəaliyyəti ərzində ifaçılıq dərkinin, şüurunun bitkinləşməsi, zənginləşməsində vaciblik kəsb edir.

Əsəri ifa etməzdən öncə bəstəkarın yaradıcılıq prinsipləri və xarakteri, eləcə də musiqi nümunəsinin yazıldığı dövr, müxtəliflik təşkil edən fikirlər və təfsirlər haqqında məlumatlanması pianoçunun musiqi əsərinə şəxsi münasibətinin formalaşma mərhələsində, yaradıcı yanaşmasında bütünlüyün əldə olunması üçün əhəmiyyət daşıyır.

Azərbaycanda fortepiano ifaçılığının başlanğıc mərhələsində fortepiano ifaçılığının tədrisi üçün xüsusi dərslik, vəsait, məcmuələr olmamışdır. Fortepiano ifaçılığı tədrisində sistematik, ardıcıllıq olmadığı üçün xüsusi dərs vəsaitinin yaradılmasına böyük ehtiyac var idi. Bu dərslik klassik avropa ənənələrini, həm də milli xüsusiyyətlərimizi əks etdirməli idi.

Azərbaycan bəstəkarlıq məktəbinin formalaşması və inkişafı milli fortepiano incəsənətinin meydana gəlməsinin əsas səbəblərindən biridir. Bəstəkarlarımızın fortepiano musiqisinin ən müxtəlif üslub və janrlarında əsərlər yaratması Azərbaycan fortepiano ifaçılıq sənətinin yaranmasına, milli ifaçılıq məktəbi və milli ifaçılıq üslubunun formalaşmasına zəmin yaratmışdır. Bu səbəblə də, bəstəkarların fortepiano əsərlərinin həm elmi-nəzəri, həm də metodiki-ifaçılıq baxımından təhlili mühüm əhəmiyyət kəsb edir.

Bəstəkarlarımızın demək olar ki, bir çoxunun yaradıcılığı, üslub xüsusiyyətləri ilə yanaşı fortepiano aləti üçün yazılmış əsərləri də bir çox aspektlərdən araşdırılmışdır. Eyni zamanda pianoçunun inkişafını təmin edən araşdırmaların elmi əsasları da diqqət mərkəzində olmalıdır. Pianoçuların bəstəkarların əsərlərini ifa edərkən onların fortepiano musiqisi üzərində intellektual iş aparması aktual məsələlərindəndir.

XXI əsrin elmi axtarışlarında, elmi-metodik işlərdə yaradıcılıq və fəaliyyətinə müraciət olunmuş bəstəkarların əsərlərinə yeni prizmalardan yanaşmaqla müasir dövrlə səsləşən ən müxtəlif aspektləri araşdırılır. Bu cəhətlərə üstünlük verildiyi daha çox müşahidə edilməkdədir:

1. XX əsrin sonları – XXI əsrin əvvəllərindən başlayaraq milli məqam təfəkkürünün inkişafı ilə əlaqədar olaraq Ü.Hacıbəyli ənənələrinin bir növ davamı Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində milli musiqiyə xas olan xüsusiyyətlər, məqam başlanğıcı, xalq musiqisinin kökləri daha dərindən öyrənilməyə başlandı və təbliğ edildi.

2. Ötən əsrdə elmi işlərdə ifaçılıq baxımından araşdırmalar azlıq təşkil edir, ifaçılıq məsələləri və problemlərinə az toxunulurdu. Son illərdə bu sahə ön plana çəkilməkdədir. “Elmi-ifaçılıq” termininin yaranması, elmi-ifaçılıq konfrans və müsabiqələrin təşkili

və keçirilməsi nəticəsində isə artıq yeni təmayüllər yaranır, bəstəkarlarımızın fortepiano əsərlərin ifaçılıq tərzi əsaslı şəkildə tədqiq olunur.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində təfsir problemlərinə dair elmi-metodik yanaşmalar"** adlanır və iki paraqrafdan ibarətdir. **"Azərbaycan milli məqamları və xalq musiqisinin fortepiano işləmələrinin ifaçılıq problemləri"** adlanan birinci paraqrafda milli məqamlarla bağlı yeniliklərin, xalq musiqi işləmələrinin fortepiano repertuarı və metodikasında əhəmiyyəti və vacibliyi vurğulanmış, bir sıra işləmələrin fortepiano ifaçılığı baxımından hansı metodik məqsədlər üçün tətbiq olunduğu üzə çıxarılmışdır.

Uzun illər fortepiano ifaçılığında daha çox rus və avropa musiqisinin öyrənilməsi və major-minor sisteminin tədrisinə üstünluk verilmişdir. Bununla birgə, milli bəstəkarlıq məktəbində fortepiano əsərlərinin meydana gəlməsi və repertuarına daxil olması milli musiqimizi daha dərindən öyrənmək, sərhədlərimizdən kənarda təqdim və təbliğ etmək kimi məsələləri meydana gətirmişdir.

Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi-fundamental əsərinin əsas rol oynadığını və bugünədək öz aktuallığını itirmədiyini nəzərə alaraq T.Seyidovun 2010-cu ildə bu samballı elmi əsər əsasında adaptasiya olunmuş dərs vəsaiti nəşr olunmuşdur. Burada milli məqamların öyrənilməsi müxtəlif üsullarla öz təcrübi əhəmiyyətini tapır.

T.Seyidov yazmışdır: "Gənc musiqiçinin Azərbaycan ladları fənni üçün adaptasiya olunmuş dərs vəsaitində əvvəl səsdüzümləri, tam və yarım kadensiyalar, Ü.Hacıbəylinin əsərlərindən parçalar və s. öz əksini tapmışdır. Əgər səsdüzümləri ilə kadensiyalar onların yalnız quruluş prinsipləri barədə təsəvvür yaradırsa, Ü.Hacıbəylinin bütün lad və onların şöbələrinə aid nümunələri öz qanunauyğun ardıcıllığında düzülərək şagirdlərə muğamın strukturunu anlamağa kömək edir. Hazırki dərs vəsaiti, şübhəsiz ki, respublikanın musiqi məktəblərinin gündəlik tədris-metodik təcrübəsində faydalı metodik nümunə ola bilər." [11]

---

[11] Seyidov, T.M. Ü.Hacıbəyli. Azərbaycan xalq musiqisinin əsasları adaptasiya olunmuş dərs vəsaiti / T.M.Seyidov. – Bakı: E.L, – s. 7

İ.Əliyevanın 2010-cu ildə 3 dildə hazırlanıb nəşr olunan “Azərbaycan musiqisi əsasında lad-intonasiya eşitmə hazırlığı üzrə praktiki vəsait”in də milli məqamların öyrənilməsində böyük əhəmiyyəti vardır. Bu vəsait milli məqamların eşitmə vasitəsi ilə öyrənilməsi və bu zəmində lad-intonasiya eşitmə qabiliyyətinin tərbiyəsi üçün nəzərdə tutulmuşdur. Burada müəllif tərəfindən məqamların intonasiya və ritmik cəhətdən səciyyəvi xüsusiyyətlərini əks etdirən lad modelləri təqdim edilmişdir. Hər bir məqama uyğun çoxlu sayda musiqi nümunələri seçilmişdir.

Respublikada milli məqamların öyrənilməsinin sistemləşdirilmiş şəkildə tədris olunması üçün 2012-ci ildə BMA-nın rektoru, xalq artisti, professor F.Bədəlbəyli və orta ixtisas musiqi məktəb-studiyasının direktoru, professor T.Seyidov tərəfindən “Ü.Hacıbəylinin elmi sistemi əsasında milli lad təfəkkürün inkişafı” proqramı hazırlanmışdır. Bu proqram böyüməkdə olan musiqiçilər nəslinin musiqi tərbiyəsi və təhsili qarşısında duran bir sıra konkret məsələləri həll etmək, xüsusən də Azərbaycan ladlarının kiçik siniflərdən başlayaraq öyrənilməsi üçün əlverişli şəraitin yaradılması məqsədini irəli sürür.[12]

Milli məqamlar və xalq musiqisinin fortepiano işləmələrinin ifa edilməsinin bir çox müsbət xüsusiyyətləri vardır:

1. Məqam sistemi ilə tanışlıq və onların ifa edilməsi milli təfəkkürü inkişaf etdirir, onu major-minor ladları hüdudlarından daha geniş səslənməyə öyrəşdirir;

2. Məqamların və kadansların ifası pianoçunun məqamlarda bəstələnmiş musiqi parçalarının, əsərlərin məqam əsasını təyin etməyə imkan verir;

3. Pianoçular tərəfindən xalq musiqisinin fortepiano işləmələrinin ifa edilməsi onu dünya musiqi arenasında tanıtmaq və təbliğ etmək imkanları yaradır;

4. Bu fortepiano işləmələrinin ifası fortepiano ifaçılıq metodikasında yeni yanaşmaların meydana gəlməsinə zəmin hazırlayır.

---

[12] Bədəlbəyli, F.Ş. Üzeyir Hacıbəylinin elmi sistemi əsasında milli lad təfəkkürünün inkişafı proqramı / F.Ş.Bədəlbəyli, T.M.Seyidov. – Bakı: Xatun-Plus, – 2012. – s. 6

Milli ifaçılıq tərzinin başa düşülməsi, dərk edilməsi prosesi məhz bu işləmələrin ifasından başlanır. Bununla pianoçular milli ifaçılıq tərzini əmələ gətirən improvizasiyalılıq, əsərin məqam-intonasiya əsası, milli alətlərin tembr zənginliyinin fortepiano alətində təqlidi, melizmlərin tətbiqi və bu ornamentlərin klassik avropa qaydalarından fərqli üslubda ifaçılığı və s. bu kimi özünəməxsus cəhətlərlə pianoçu xalq musiqisinin sadə fortepiano işləmələrini ifa edərək milli musiqiyə xas olan xüsusiyyətlərlə tanış olur, milli düşüncə tərzini inkişaf etdirir.

Dissertasiyanın **"İfaçılıq metodlarının təcrübi tətbiqi əhəmiyyəti: Azər Dadaşovun fortepiano üçün "Lirik pyeslər" silsiləsi nümunəsi əsasında"** adlanan ikinci paraqrafında Azər Dadaşovun "Lirik pyeslər" silsiləsinin hər bir pyesi ilk dəfə olaraq nəzəri və ifaçılıq baxımından təhlil olunmuşdur.

A.Dadaşovun 2020-ci ildə bəstələdiyi fortepiano üçün "Lirik pyeslər" məcmuəsi obrazlı-emosional məzmununa görə digərlərindən fərqlənir. Burada instrumental miniatür janrında fikir və hisslərin lakonik ifadəsi öz əksini tapmışdır.

Bəstəkar "Lirik pyeslər" silsiləsində klassik, caz və milli üslubları üzvi surətdə birləşdirərək özünəməxsus ifaçılıq tərzi yaradır. Pianoçu bu silsiləni ifa etmək üçün hər üç üslubun xüsusiyyətlərini nəzərə alaraq pyeslərin obrazlı-emosional məzmununa uyğun ifa tərzi seçməlidir. Bu pyeslərin ifa tərzi romantizm, impressionizm, qismən improvizasiyalı caz və milli xalq pianizmi üslublarına yaxındır. Səs idealı yüngül, obertonlu, "qərq olunmuş" səs tonu seçilməlidir. Bu səs tonunu almaq üçün pedaldan istifadə mütləqdir.

Silsilənin pyesləri yalnız obrazlar aləmi vasitəsi ilə deyil, intonasiya, faktura quruluşu, məqam xüsusiyyətləri ilə də bir-biri ilə uyğunluq təşkil edir. Məsələn, "Həmd-səna" pyesində girişin özünəməxsus ritmik quruluşlu mövzusu "Zəriflik" pyesində 19-cu xanədə, "Sevgi ilə" pyesində 24-cü xanədə özünü dəyişilmiş şəkildə büruzə verir. Əksər pyeslər girişlə başlayır. Melodiyalara mahnıvarilik xasdır. Bütün pyeslərin sonu sakitləşərək *piano* və *pianissimo* nüanslarında bitir. Mövzuların inkişafında variasiyalılıq, və rondo formasına xas olan xüsusiyyətlər, insan nitqinə yaxın olan deklamasiyalı-reçitativ üslubu cizgiləri tətbiq olunmuşdur. Pyeslərdə

“Şur”, “Segah”, “Humayun” və “Bayatı-Şiraz” məqamlarının intonasiyaları üstünlük təşkil edir.

Pyeslərin əksəriyyəti 2 və 3 hissəlidir. Yalnız həcmcə ən böyük sonuncu “Kadensiya” pyesi variasiya və sonata formalarının cizgilərini özündə birləşdirir. Lakin forma anlayışına məntiqlə yanaşan bəstəkar hissələr arası bölgüləri çox axıcı, özünü büruzə verməyən keçidlərlə əlaqələndirir. Bölgülər sanki itir, bütövlük yaranır.

“Lirik pyeslər” silsiləsinin özünəməxsus ifaçılıq metodlarından biri də *legato* çalğı üslubu ilə bağlıdır. Pianoçu əksər hallarda *legato* ifa edərkən bir əl hərəkəti ilə pedal fonunda *staccato* edərək əlaqəli, rabitəli və ifadəli ifaya nail ola bilər. *Tenuto* göstərişləri bas səsində pedal vasitəsi ilə saxlanılaraq harmoniyanın xanələr boyunca qalmasını şərtləndirir. Bu göstərişlər bəstəkarın özü tərəfindən qeyd olunmuşdur və bas *tenutoları* sanki göylərə ucalan insan hisslərini yerin cazibə qüvvəsi kimi özünə cəzb edir. Bu silsilə həm tam, həm də ayrı-ayrı nömrələr şəklində ifa oluna bilər.

Dissertasiyanın üçüncü fəsli **“Müasir dövr Azərbaycan fortepiano ifaçılığı üzrə aparılan elmi-tədqiqi araşdırmaların tətbiqi”** adlanır. Bu fəsil dörd paraqrafdan ibarətdir. **3.1. “Tərlan Seyidovun elmi-pedoqoji baxışları və tətbiq etdiyi pedaqoji prinsiplərin mahiyyəti”** adlanan bu paraqrafda T.Seyidovun pedaqoji prinsipləri, metodları ilk dəfə əhatəli şəkildə not nümunələri ilə nəzərdən keçirilmişdir. Onun pedoqoji fəaliyyətində müraicət etdiyi metod və prinsiplərdən bəhs edilmişdir.

Bu paraqrafda T.Seyidovun dərs prosesində tətbiq etdiyi və ən çox üzərində işlədiyi on iki prinsip təqdim olunaraq onların mahiyyəti açıqlanmışdır. Onlardan əsərin öyrənilməsi zamanı not mətninin düzgün araşdırılması, musiqinin obrazının düzgün müəyyənləşdirilməsi, applikatura, səs və intonasiya, pauzalar, temp, pedalizasiya üzərində iş və digər prinsiplərin izahatında Tərlan müəllimin xüsusi yanaşmaları və hansı metodlar tətbiq etdiyi vurğulanmışdır.

Musiqi əsərinin hər hansı bir fraqmentinin iri planda göstərilməsi onun ən çox istifadə etdiyi metodlardan biri olmuşdur. O, səs üzərində işləyərkən müəyyən fraqmentin hər bir incə detalını görməyə və eşitməyə fikir verməyi tələb edirdi. T.Seyidov pianoçunun ifa etdiyi əsərin başlanğıcı, kulminasiyası və sonu

haqqında düşünməli olduğunu qeyd etmişdir. Ona görə əsər üzərində çalışarkən məhz bu üç məfhum diqqət mərkəzində olmalı idi ki, dinləyici tanış əsərdə, habelə ilk dəfə eşitdiyi musiqi əsərində qeyd edilən məqamlara fikir verir.

İntonasiya üzərində iş və dirijorluq etmə metodları professorun hər əsərdə diqqət mərkəzində saxladığı prinsiplərdən idi. Tərlan Seyidovun fikrincə, musiqi əsərində xanələrin ardıcıllığı dirijorluq prosesini xatırlatmalıdır. Hər bir xanənin daxilində əllərin hərəkəti metrik hərəkətlə əlaqədar olmalı, hər metrik ölçüyə uyğun solfecio olunduğu kimi, əllər də xanə daxilində güclü təqtidən zəif təqtiyə doğru dövr vurmuşcasına hərəkət etməlidir.

T.Seyidovun dərslərində səs üzərində işləmə metodları olduqca müxtəliflik təşkil etmişdir. M.Brenner məktəbinin əsas prinsiplərindən olan dərin və dolğun ifaya üstünlük verən pedaqoq hər zaman musiqi əsərinin obrazına, məzmununa və xarakterinə uyğun düzgün səs fəzasının yaradılmasını tələb etmişdir. Burada iki metodu xüsusilə qeyd etmək lazımdır: fiziki və psixoloji metod.

Fiziki metod dedikdə, pianoda ifa edərkən tələbənin klavişlərə yüngül toxunmaqla əzələ sərbəstliyi, bilək hərəkətləri, çiyinlərin, dirsəklərin düzgün vəziyyəti vasitəsilə tam aydın səsə nail olması nəzərdə tutulur.

Psixoloji metod əsəri ifa edərkən emosional cəhətdən hazırlıq, ətraf aləmdən təcrid olmağı bacarmaq, bütün fikirlərdən azad olmağı təklif edir, yalnız musiqi obrazı haqqında düşünməyi tələb edir. İfaçının psixoloji vəziyyəti musiqi əsərinin səs fəzasını yaratmaqda əhəmiyyət kəsb edən məqamlardandır.

Professor T.Seyidovun dərs keçmə metodikası, onun pedaqoji prinsipləri, ilk növbədə M.Brenner ənənələrinə söykənən təcrübəsi ilə bağlı olmuşdur. Bu səbəblə də professor T.Seyidovun dərs keçmə metodları, pedaqoji ideyaları, pedaqoji prinsipləri Azərbaycan fortepiano ifaçılığı sahəsində mühüm yerlərdən birini tutmuşdur.

Beləliklə, professor T.Seyidovun yarım əsrə bərabər çoxşaxəli musiqi fəaliyyəti, məhsuldar əməyi nəticəsində Azərbaycanın yetişdirdiyi yüzdən artıq tələbədən bir çoxu xaricdə təhsil alır, ifaçı-pianoçu, solist kimi çalışır, bəziləri pedaqoji fəaliyyətdədirlər.

Bu fəslin **3.2. "Fortepiano ansamblı ifaçılığı və yeni metodik yanaşmalar"** adlanan paraqrafında ansambl ifaçılığı tarixi baxımından Azərbaycanda yaranması və inkişafı izlənilmişdir. Fortepiano ansamblı ifaçılığı professional pianoçuların yetişdirilməsində kompleks tədrisin vacib fənlərindən biridir. İfaçı-pianoçunun ansambl texnikasının formalaşması prosesi müasir dövrün aktual problemlərindəndir. Pianoçunun texnikasının inkişafı ilə bərabər ansambl texnikasının inkişafı da müasir dövrdə ən çox araşdırılan məsələlərdən birini təşkil etməkdədir.

Azərbaycanda fortepiano ansambl ifaçılığının yaranması və inkişafı XX əsrin II yarısına təsadüf edir. İlk köçürmə və işləmələr, orijinal dörd əlli əsərlər 40-50-ci illərdə yaranmışdır. 1950-ci illərdən isə bəstəkarların yaradıcılığında F.Əmirov və E.Nəzirova iki fortepiano üçün "Alban mövzuları əsasında süita", sonralar A.Məlikovun "İki fortepiano üçün Skerso", M.Mirzəyev, V.Adıgözəlov, S.Fərəcov, S.İbrahimova, E.Dadaşova, A.Dadaşov, C.Allahverdiyev və digər bəstəkarlarımızın yaradıcılığında da fortepiano ansamblı üçün müxtəlif əsərlər meydana çıxmışdır.

Belə ki, musiqi incəsənətinin bir çox sahələrində olduğu kimi, ansambl ifaçılığında da ilk təşəbbüs dahi bəstəkar Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. İlk dəfə olaraq Ü.Hacıbəylinin rəhbərliyi altında L.Yeqorova və R.Siroviçin hazırladığı "Fortepianoda çalmaq üçün ibtidai dərslik"də ansambl nömrələrinə xüsusi diqqət yetirilmişdir.

Müasir dövrdə Azərbaycanda fortepiano ansambl ifaçılığı əsasən üç istiqamətdə (bəstəkarlıq, ifaçılıq və metodika) inkişaf edir. Öz növbəsində ansambl ifanın diqqət mərkəzində olması, peşəkar pianoçuların inkişafında rolu, əlavə ədəbiyyatın, yeni nəşrlərin, metodik vəsaitlərin, tövsiyələrin və dərsliklərin yazılmasına tələbat yaradır.

Bu məqsədlə "Birgə çalaq" ansambl üzrə dərs vəsaitində həm şagirdlərin, həm də müəllimlərin üzləşdiyi bir sıra çətinlikləri, çatışmazlıqları aradan qaldırmaq, ansambl texnikasını yaxşılaşdırmaq, repertuarı genişləndirmək, musiqiçinin dünyagörüşünü artırmaq və s. bu kimi məqsədlər qarşıya qoyulmuşdur.

Təqdim edilən dərs vəsaitinin əsas yenilikləri ondan ibarətdir ki, dərslik ilk növbədə, sistematik olaraq qurulmuşdur. Buraya

məşğələlər, etüdlər, pyeslər, opera və baletlərdən işləmələr, konsert əsərləri, müasir musiqi nümunələri də daxil edilmişdir. Burada 35 bəstəkarın 70-ə yaxın əsəri yerləşdirilmiş, nömrələr dərs prosesləri zamanı tətbiq olunmuş və konsertlərdə ifa edilmişdir. “Birgə çalaq” ansambl üzrə dərs vəsaiti Azərbaycan Demokratik Respublikasının yaranmasının 100 illik yubileyinə həsr olunmuşdur.

Dərsliyin ilk hissəsində hələlik xarici bəstəkarların fortepiano ansamblı üçün metodik əhəmiyyətli və konsert repertuarı üçün müxtəlif janrlı əsərlərinə müraciət edimişdir. Dərsliyin ikinci hissəsinin isə milli bəstəkarlıq nümunələri əsasında tərtib olunması planlaşdırılmışdır. İlk nömrələr sadə, unison melodiyaların müşayiətlə birgə ifasına aid məşğələ və etüdlərdir. Bu nömrələri seçərkən müəyyən musiqi anlayışlarının, ölçü, ritm, tonallıq, major, minor lad xüsusiyyətləri və s. bu kimi terminlərin izahı, ifaçılıq vərdişlərini mənimsəmək kimi məsələlər əsas götürülmüşdür. Hər məşğələ və etüddə əsas məqsədlərə diqqət çəkmək üçün izahatlar, məsləhətlər yerləşdirilmişdir. İlk nömrələrdən dərslərdə birgə ifa prosesində üzdən oxuma texnikasını inkişaf etdirmək üçün istifadə etmək də olar.

Fortepiano ansamblı ifaçılığı professional pianoçuların yetişdirilməsində kompleks tədrisin vacib fənlərindən birini təşkil edir. Bu baxımdan, pianoçuların ansambl texnikasının formalaşması prosesi aktuallığını saxlayan musiqi tədrisi məsələləri sırasındadır. Pianoçunun fərdi texniki bacarıqları ilə bərabər ansambl texnikasının inkişafı istiqamətləri tədqiqat mövzusu kimi maraq doğurmağa davam edir.

Beləliklə, ansambl ifaçılığın pianoçuların fəailyyətində mühüm yer tutduğunu nəzərı alsaq, bu sahənin gələkcəkdə inkişaf etdirilməsi üçün tədrisin bütün pillələrində mərhələli şəkildə tətbiqinə xüsusi diqqət yetirilməlidir. Milli bəstəkarlarımızın yaradıcılığında fortepiano dueti janrına daha çox maraq oyatmaq lazımdır. Bu sahə üzrə həm bəstəkarlıq, həm ifaçılıq müsabiqə və festivalların keçirilməsi, konfransların təşkil olunması, elmi tədqiqat işlərinin yazılması ansambl fortepiano ifaçılığının daha da inkişafını təmin edə bilər.

Bu fəslin **“Fortepiano ifaçılığı üzrə Azərbaycanda keçirilən müsabiqə və festivallarda tətbiq olunan yenilikçi meyarlar”**

paraqrafı yeni metodlu yarışmalara, müsabiqə və festivallara həsr olunmuşdur. Azərbaycanda keçirilən musabiqə və festivalların nəticələri araşdırılmış, onların fortepiano ifaçılığı sahəsində vacibliyi və metodiki əhəmiyyəti vurğulanmışdır.

Azərbaycanda keçirilən ənənəvi müsabiqə və festivallardan fərqli olaraq bu yarışmalara yeni cəhətlər, yeni meyarlar daxil olmağa başladı. Bu meyarlardan biri nəzəriyyə ilə ifaçılıq təcrübəsinin bir-biri ilə əlaqələndirilməsi idi. Digər meyar isə milli lad sisteminin, məqamların Azərbaycan bəstəkarlarının əsərlərində tətbiq olunması nəticəsində meydana gəlmişdir.

Nəzəri biliklərin ifaçılıq təcrübəsi ilə əlaqələndirilməsi ideyasını ilk dəfə T.Seyidov irəli sürmüşdür. O, ifaçının təkcə praktiki hazırlığının kifayət etmədiyini irəli sürmüş və bunun üçün ifaçıların müxtəlif nəzəri biliklərə yiyələnməli, geniş dünya görüşünə malik olmalarını vurğulamışdır.

Beləliklə, bu ideyalardan ilhamlanaraq konservatoriya daxilində 1980-ci illərdən başlayaraq yeni yarışma formatı – elmi-ifaçılıq müsabiqələrinin keçirilməsinə başlanmışdır. Elmi-ifaçılıq konfrans və müsabiqələr layihəsinin müəllifi və yaradıcısı isə professor T.Seyidov olmuşdur.

Bu paraqrafda Azərbaycanda keçirilən bir çox yeni tələb və metodlu müsabiqələrin nəticələri araşdırılmış və metodik baxımdan əhəmiyyəti öyrənilmişdir.

Dissertasiyanın III fəslinin **"Azərbaycan fortepiano ifaçılığında elmi axtarışların meydana gətirdiyi yeni tendensiyalar"** adlanan sonuncu paraqrafında milli fortepiano ifaçılığında tətbiq olunan yeniliklərdən, innovativ metodlardan, yeni metodiki iş və dərs vəsaitlərinin tətbiqindən bəhs olunur və Azərbaycan fortepiano ifaçılığında fərqli xüsusiyyətlərinin meydana gəlməsi səbəbləri göstərilir.

Bu gün müxtəlif ölkələrdə vətənimizi təmsil edən pianoçularımızın proqram seçimində çox geniş repertuara üz tutaraq həm klassik, həm müasir dövr bəstəkarlarının fortepiano əsərlərinin ifa təfsirləri peşəkar musiqiçilər tərəfindən müsbət qarşılanılır və qəbul olunur. Azərbaycan bəstəkarlarının əsərləri repertuara daxil edilərək ən müxtəlif konsert salonlarında səslənir. Müasir

bəstəkarlarımızın yaratdıqları əsərlər isə dünya musiqisində baş verən yeni təmayüllərlə uzlaşır.

Azərbaycan fortepiano məktəbi keçən əsrin əvvəllərində avropa və rus fortepiano metodikasının təsiri altında inkişaf edirdisə, artıq müasir dövrdə milli fortepiano mədəniyyətinin inkişafı üçün azad və milli zəminə əsaslanan şərait vardır.

Müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi fortepiano ifaçılıq sənətinin inkişafı da canlandı, yeni mədəni əlaqələr quruldu. Zamanla video və audio yazıların tətbiqi, internet resurslarının istifadə edilməsi, onlayn konsertlər, video dərslər, ustad dərsləri, müxtəlif saytlarda elmi-metodiki işlərlə tanışlıq, istənilən əsərlərin not və səs yazılarının əvvəlki illərə baxanda daha əlçatan olması və s. bu kimi məsələlər ifaçılıq sənətinin də inkişafında mühüm rol oynamağa başladı.

Tətbiq olunan yeni innovasiyalardan fənlərarası əlaqələrin yaradılması, kollokviumların keçirilməsi və annotasiyaların yazılması son dövr fortepiano metodikasında yeni tendensiya kimi geniş vüsət almışdır. Bunun nəticəsində fortepiano ifaçılığı sahəsində kompleks yanaşmaların müsbət təsiri özünü göstərir.

Azərbaycan fortepiano sənətinin yeni tendensiyalarla sürətlə inkişafı onu sübut edir ki, gələcəkdə hələ çox illər bu alətdə ifaçılıq ənənələri və fortepiano ifaçılığı barədə elmi-nəzəri fikirlər davam etdiriləcək, daha yeni ideyaların, nailiyyətlərin, meydana gəlməsinə zərurət yaradacaqdır.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqat işində müasir Azərbaycan fortepiano ifaçılığının inkişafını şərtləndirən bir çox yeni tendensiyaların tətbiqindən meydana gələn yeni xüsusiyyətlər təqdim edilir.

Dövrümüzdə sürətlə gedən proseslər incəsənətdən də yan keçmir. İnternet əsrində istənilən musiqi materialını asanlıqla əldə etmək, müxtəlif ifalarla tanış olmaq, minlərlə musiqiçi ilə ünsiyyətdə olmaq mümkündür. Qloballaşmanın sürətlə getdiyi bu dövrdə ifaçılıq məktəbləri, metodik fikirlər, eləcə də pedaqoji ənənələrində yeniliklərin, dəyişikliklərin baş verməsi artıq çoxdan qaçılmaz olmuşdur. Bu baxımdan, Azərbaycan ifaçılıq sənəti, o cümlədən onun əhəmiyyətli bir qolunu təşkil edən Azərbaycan fortepiano

ifaçılığı məktəbi də bu yenilənən, fəal inkişaf edən prosesin bir parçasını təşkil etməkdədir. Təqdim edilən “Azərbaycam fortepiano ifaçılğında elmi axtarışların tətbiqi problemləri” adlı tədqiqat işində qeyd olunan proses elmi müstəvidə işıqlandırılmışdır.

Azərbaycan fortepiano mədəniyyəti tarixində sovet hakimiyyəti və müstəqillik əldə etdikdən sonrakı dövrləri müqayisə etsək görürük ki, bünövrəsi rus musiqi metodikası əsasında qoyulan fortepiano ifaçılığı formalaşmış ənənələri inkişaf etdirərək, milli fortepiano ifaçılıq metodikasının yaranması və inkişafı üçün özündən əvvəlki ənənələrdən imtina etməyərək yeni yollarla, tendensiyalarla daha da zənginləşmişdir. Milli bəstəkarlıq məktəbinin, metodikasının yaranması milli kadrların yetişdirilməsi çox qısa zaman kəsiyində baş verməsinə baxmayaraq, müasir dövrdə fortepiano ifaçılıq sahəsində elmi axtarışların aparılması və tətbiqi üçün bütün imkanlar vardır.

İfaçıların peşəkarlıq səviyyəsinin artırılması məsələsi respublikamızda təkcə Bakıda deyil, digər şəhər və rayonlarımızda artıq günümüzün aktuallığını əks etdirir. Yeni metodlarla, proqram və dərs vəsaitləri ilə tanışlıq, yeni meyarlı müsabiqələrin təşkili, onlayn dərslər, müəllim və ifaçıların fikir mübadiləsi demək olar ki, Respublikamızın bütün bölgələrini əhatə edir.

Keçirilən yeni meyarlı müsabiqə və konfranslarda Bakı şəhəri ilə yanaşı, digər şəhər və rayonların musiqi məktəblərinin pianoçularının uğurlu çıxışları buna sübutdur. Bundan başqa bu müsabiqələrdə müəllim və ifaçıların qarşılıqlı əlaqəsi, onların peşəkarlıq səviyyələrinin yüksəlməsinə xidmət edən seminarlar və məsləhət dərslərinin təşkili öz töhfəsini verir. Belə ki, ildən-ilə bu musabiqələrə qatılan və öz üzərində işləyən, çalışan ifaçıların sonradan, fortepiano ifaçılıq texnikasının inkişafının, ümumi dünyagörüşünün daha da artmasının şahidi oluruq.

Yeni nəşr olunan dərsliklərdə milli təfəkkürün oyanışını əks etdirən məqamların, xalq mahnı və rəqslərinin, fortepiano üçün xalq musiqisi işləmələrinin ön plana çəkilməsi də sevindirici haldır. Belə ki, başlanğıc siniflərdən başlayaraq, xarici bəstəkarların xalq musiqisi işləmələri ilə yanaşı, milli fortepiano musiqisi işləmələrini ifa edərkən həm fortepiano çalğı üsullarına yiyələnmək olur, həm də

milli musiqimizin xüsusiyyətlərini kiçik pianoçulara təlqin etməyə imkanlar yaranır. Bəstəkarlarımızın əsərlərinin araşdırılmasında milli xüsusiyyətlərin, məqam əsaslarının (əgər varsa) üzə çıxarılması yeni meyar kimi üstünlük təşkil edir.

Beləliklə, təqdim olunan dissertasiya işində aparılan araşdırmalar Azərbaycan fortepiano ifaçılığında elmi axtarışların tətbiqi nəticəsində meydana gələn yeni metodlar, tendensiyaların müasir dövrdə bu sahənin inkişafını təmin etdiyini aydın şəkildə tam dolğunluqla əks etdirir. Bu elmi işdə bəzi araşdırmalar ilk dəfə işıqlandırılır. Onlardan dərs vəsaitlərinin və metodik işlərin müqayisəli təhlili, xalq musiqi işləmələrinin fortepiano ifaçılığında tətbiqi problemləri, Azərbaycan bəstəkarlarının əsərlərində ifaçılıq baxımından araşdırılması və məqam əsasının üzə çıxarılması metodları, yeni tendesiya və istiqamətlərin müsbət və mənfi cəhətləri və digər problemləri, eləcə də professor Tərlan Seyidovun tətbiq etdiyi pedaqoji prinsiplərin mahiyyətinin ilk dəfə açıqlanmasını nümunə olaraq göstərmək olar.

Dissertasiyanın yerinə yetirildiyi müddətdə müəllif tərəfindən yeni tendensiyaların tətbiqi ilə yazılan, müxtəlif problemləri aradan qaldırmaq məqsədi ilə yeni metodlara əsaslanan metodiki və dərs vəsaitləri hazırlanmış və nəşr olunmuşdur. Bu işlərdən “Dostum Fortepiano” metodiki vəsaiti tədrisin başlanğıc mərhələsində tətbiq olunması üçün nəzərdə tutulmuşdur. Ansambl ifaçılığı üzrə “Birgə çalaq” adlı dərs vəsaiti özündə müasir dövrün tələblərinə uyğun olan təmayülləri mənimsəyərək sistematik qurulmuşdur. “Poeziyada ilin fəsilləri” adlanan digər metodiki vəsait və “Musiqidə ilin fəsilləri” elektron dərslik Tərlan Seyidovun “Musiqidə, rəssamlıqda, poeziyada ilin fəsilləri ” adlı layihəsinin davamı kimi fənlərarası və incəsənət sahələri arasındakı əlaqəni özündə əks etdirir.

Təqdim olunan dissertasiyanın tədqiq olunan mövzuların müxtəlifliyi, genişliyini nəzərə alsaq belə qənaətə gəlirik ki, elmi işin nəzəri müddəalarından gələcəkdə bu sahəni araşdıran pianoçular, pedaqoqlar, musiqiçilər faydalana bilər.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**

1. Zeynalova, N.Ş. Fortepiano ifaçılığında tətbiq olunan dərs vəsaitlərinin müqayisəli təhlili və Azərbaycanda milli dərs vəsaitlərinin tərtib olunması // – Bakı: Musiqi dünyası, – 2017. № 4 (73), – s. 56-58
2. Zeynalova, N.Ş. Dostum Fortepiano. Metodik vəsait / N.Ş.Zeynalova. – Bakı: Politex, – 2017. – 35 s.
3. Zeynalova, N.Ş. Birgə çalaq. Dərs vəsaiti / N.Ş.Zeynalova. – Bakı: Xəzər Universitəsi nəşriyyatı, – 2018, – 257 s.
4. Zeynalova, N.Ş. Fortepiano ifaçılığı üzrə Azərbaycanda keçirilən müsabiqə və festivallarda yenilikçi meyarlar // Doktoranların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları, – Bakı: – 22 noyabr – 23 noyabr, – 2018, – s. 538-540
5. Zeynalova, N.Ş. Azərbaycan milli məqamları və xalq musiqisinin fortepiano işləmələrinin ifaçılıq problemləri // Beynəlxalq musiqi təhsili cəmiyyəti 33-cü Dünya Konfransı, Türk Dünyası oturumu, – Bakı: – 15 iyul – 20 iyul, – 2018, – s. 506-514
6. Zeynalova, N.Ş. Qara Qarayev yaradıcılığı musiqi müsabiqələrində // Müasir Azərbaycan bəstəkarı və zaman. Doktorant və gənc tədqiqatçıların Respublika elmi konfransının materialları və elmi məqalələr toplusu, – Bakı: – 11 aprel – 12 aprel, – 2019, – s. 194-201
7. Zeynalova, N.Ş. Fortepiano alətinin yaranma tarixi, avropa və rus ifaçılıq ənənələrinin formalaşması və Azərbaycan fortepiano ifaçılığına tətbiqi // VI Uluslararası Müzik və Dans konqresi, – Alanya: 30 Oktyabr – 31 Oktyabr, – 2020, – s. 322-332
8. Зейналова, Н.Ш. Новые тенденции, проявленные в процессе научных поисков в азербайджанском фортепианном творчестве // – Москва: Музыка и время, – 2020. № 7, – с. 32-35

9. Zeynalova, N.Ş. Tərlan Seyidovun elmi-pedaqoji baxışları və tətbiq etdiyi pedaqoji prinsiplərinin mahiyyəti // VIII

Uluslararası Müzik və Dans kongresi, – Bakı: 1 Noyabr – 3 Noyabr, – 2021, – s. 397-410
10. Zeynalova, N.Ş. Azərbaycan bəstəkarlarının əsərləri üzrə aparılan elmi işlərdə fərqli yanaşmalar // – Bakı: Musiqi Dünyası, – 2021. 4/89, – s. 18-22
11. Zeynalova, N.Ş. Fortepiano ansamblı ifaçılığı və yeni metodik yanaşmalar
12. Zeynalova, N.Ş. Azər Dadaşovun "Lirik pyeslər" silsiləsinin obrazlı-emosional məzmunu və ifaçılıq metodları // – Bakı: Musiqi Dünyası, – 2022. 4/93, – s. 86-91
13. Zeynalova, N.Ş. Azərbaycan fortepiano repertuarında xalq musiqi işləmələrinin metodik əhəmiyyəti // – Bakı: Konservatoriya, – 2022. №3 (56), – s. 15-28
14. Zeynalova, N.Ş. Poeziyada ilin fəsilləri. Metodik vəsait / N.Ş.Zeynalova. – Bakı: Səda, – 2022. – 140 s.
15. Zeynalova, N.Ş. Azər Dadaşovun Heydər Əliyevə həsr olunmuş "Fortepiano və kamera orkestri üçün poema" əsərinin obrazlar aləmi və ifaçılıq metodları // Azərbaycan musiqi mədəniyyətinin inkişafında Heydər Əliyevin rolu. Respublika elmi-praktiki konfransının materialları, – Bakı: – 26 aprel – 27 aprel, – 2023, – s. 228-235
16. Zeynalova, N.Ş. Fortepiano ifaçılığında musiqi, poeziya və rəssamlığın qarşılıqlı əlaqələrinin metodikası // – Naxçıvan: Axtarışlar, – 2023. Cild 15, № 4 (45), – s. 185-188
17. Zeynalova N.Ş. "Musiqidə ilin fəsilləri" Elektron vəsait / Zeynalova N.Ş. – Bakı: – 2023, 16 s.





25

Dissertasiyanın müdafiəsi 31 oktyabr 2024-cü il tarixində saat 11:00 Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli küç. 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.09.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 40 915 işarə

Tiraj: 100